


# Salam, Şuşam...

**Leyla Turan**

Yenə gəldim, ay Şuşam,
Torpağını öpməyə...
Səni bağrıma basıb,
Nəğməni dinləməyə...

Həsrətindən tökülmür
Daha gözümün yaşı...
İndi sevinc hisslərim,
Zəfərimin yurddaşı.

Darıxmışdım yolların,
Küçələrinçün, Şuşam...
Darıxmaq da gözəlmiş,
Səni görməkçün, Şuşam...

Qoynunda bir səhərə
Oyanmağın heyrəti!
Sən dolu yuxuların
Çin çıxan bərəkəti!

Röya deyilsən daha...
Gerçəyimin özüsən!
Üçrəngli bayrağımçün
Yanan qəlbin közüsən!

Şəhid qoxulu şəhər,
Zəfər sənə yaraşır...
Qudsallığın, saflığın
Könül-könül dolaşır...

Gəl, dərdləşək səninlə,
Sən sus, mən də sirr açım.
Məğrurcasına dinlə,
“Sevirəm!” deyim, qaçım...

Qaçdığım, can atdığım
Dayandığım yer də sən!
Səni sevmək gözəldir;
Dünyanın ən möhtəşəm,
Seviləsi yerində-
Bütün könüllərdəsən!

Türküstan.-2023.-25-31iyul.-S.13.